

İlyas TAPDIQ

# Bu dağlarda 100 nədir ki?!

*Tanrı ocağıdır hər daşın,qayan,*
*İlahi özüdür ömrünə həyan.*
*Yüz yaşın üstünə təzə yaş qoyan*
*Ərənlər anası Gədəbəydədir.*

Gədəbəy! – ərlər, ərənlər yurdusan! Elin-oban sənə «Qeyrət qalası» -deyə ad verdi. Bulaqları günəşə güzgü tutan, şəlalələri cənnət torpağına nəğmə deyən qoca diyar. Aşıqların dilində dastana döndün, hüsnünə şeirlər yazıldı, nəğmələr bəstələndi.

*Yüz yaşlı qocası bənzəyir gəncə,*
*Qalxır yaylaqlara hamıdan öncə,*
*Qafqaz xalıdırsa, ən zərif, incə*
*Bəzəyi, ziynəti Gədəbəyindi...*

Doğma Gədəbəy, beləcə hər kəs səni uzun ömürlülər diyarı kimi tanıdı, ancaq dünyanın da qəribə bir yaşı var. Hər yaranmışın da özünə görə, uzun və qısa ömrü var. Ömrü tükənən qocaman ulduzlar son parıltıyla kainatda yox olur, şimşək də bir anlıq ömrüylə görünüb göyləri lərzəyə gətirir, lakin yadda qalan insan, bir də onun ömrü olur. Nazim Hikmətin təbirincə desək, dünyanın böyük bir «İnsan mənzərələri» var. Bizim bu dağlarda ta qədimdən bəri insanlar inamı, qüdrəti, ağlı-zəkası ilə təbiəti ev-eşiklə, bağ-bağçayla, yollarla, cığırlarla, körpülərlə bəzədi, öz ömrünü zəhmətə bağladılar, ömürlərinin mənzərələrini yaratdılar. Bəzən deyirlər filan rəssam təbiət mənzərələrinin ustasıdır. İnsan mənzərələrinin ustası olan rəssamlar da var. Belə rəssamlar insanı, onun zahirini və daxilini çəkə-çəkə əslində insanlığın mənzərəsini – insan ömrünü yaradırlar. İnsan ömrü təbiətdən uzaqda deyil. Dağının-daşının yaşı bilinməyən qədim və ulu Gədəbəydə insanın 100 yaşayıb, onu arxada qoyması təbii haldır.

Palıdı əsrləri yola salan dağların insanları niyə palıd ömürlü olmasınlar? İnsan ömrü – ana bətnindən başlayıb uzun bir yol gedir. Həyat yolunda keşməkeşlərdən keçə-keçə axşamın-səhərin qövsi-qüzehinə çevrilir. Körpə vaxtı əzizlənir, gəncliyində eşqə düşür, çılğınlaşır, yaşadıqca müdrikləşir, kövrəlir. Xoş o kəslərə ki, onların arxasınca «Şərəfli bir ömür yaşadı» deyirlər...

Bəzən insan Tanrının ona bəxş etdiyi ömrü də təəssüf ki, başa çatdıra bilmir. Sərt havalar, amansız dövran, «susan vicdanlar», həyatın sərt sınaqları onu vaxtından tez soldura bilir. Doğma torpağımızın hər yerində – aranında, dağında uzunömürlü bir insan görəndə adamın ürəyi dağa dönür. Bu ömürlər illərin salnaməsidir. Diz-dizə, üz-üzə əyləşirsən, bir də görürsən budur ey, hərdən kövrələ- kövrələ, hərdən dəmlənə-dəmlənə, hərdən də qəmlənə-qəmlənə kimlərdən və nələrdən danışmırlar. Dəfələrlə müşahidə etdiyim bir incəliyi vurğulamaq istəyirəm. Bizim qocalar hər hansı bir əhvalatın sonunu nikbin bitirməyə, özlərinin ürəklərinin istədiyi kimi tamamlamağa çalışırlar. Əgər belə olmasa, bu insanlar nə yüz yaşayardılar, nə də yüzü arxada qoya bilərdilər. İnsanı vaxtsız qocaldan, dərdə-sərə salan onun içindəki xılt, xəbislik olur. O insanları ki, gözlərini açıb deyib-gülən, halal zəhmətlə dolanan gördüm, onlar uzun ömürlü oldular. Bir həqiqət də vardır ki, insanı əməlləri, arzuları yaşadır. Xoş əməlli, xoş arzulu gördüm bizim Gədəbəyin insanlarını. Ağızlarını dualı, əllərini urvalı, sinələrini yaxalıqlı gördüm. Nağılla, bayatıyla, şeirlə danışdılar. Uşağa-cavana öyüd-nəsihət verib, ağsaqqaldan-ağbirçəkdən həyalandılar. El-oba arasında ömür-gün haqqında nə qədər tutarlı deyilmiş sözlər var. Bir-birindən heyif almaq, ürəyinin qəzəbini boşaltmaq üçün deyilmiş sözlər, həm də xoşməramla, uğurla deyilmiş sözlər var. El yaxşı oğula, xeyirxahlığa görə «ömrün uzun olsun!» deyib. Naqisə, nadana, yaramaza, mərifətsizə isə «ömrün gödək olsun!», «günün qara gəlsin!» - söyləyibdi. Hər bir insanın öz taleyi, öz ömür yolu, bir də öz alın yazısı olur. Amma etiraf edək ki, zaman, mə-

kan anlayışı deyilən bir ölçü də var. Gəlin, bir anlığa keçmişə qayıdaq. Şirəli Müslümov, Mahmud Eyvazov kimi uzunömürlü insanlar Lerik dağlarının suyunu içib, çörəyini yeyib, əsrarəngiz meşələrin havası ilə iki əsrədək bir ömür yaşadılar. İnsanın uzun ömür sürməsinin başlıca səbəblərindən birini ana təbiətin ilmə-ilmə, naxış-naxış gözəlliklərində axtarmaq gəlir. Bizim dağlarda bir balaca nasazlayanı, xəstəhal olanı çay qırağına çıxarıb, bulaq başına, meşə ətrafına aparardılar ki, ağrı-acısı sovuşsun. Bu gün də belədir. Əbəs yerə deməyiblər ki, ən böyük loğman təbiətin özüdür. Gədəbəyin insanları minillərdir bu «loğman-la» üz-üzə, göz-gözə dayana-dayana sağlam bir həyat yaşayırlar. Elə buna görədi ki, indi Gədəbəydə yüz yaşı başa vurub, onu arxada qoyan neçə-neçə ağbirçəyimiz, ağsaqqalımız var. Xoşbəxt insan o insandır ki, əkdiyi hər tumun, körpə şitilin qol-qanad atıb bəhrəbara çevrilməsini görür. Yuxusuz gecələrdə gözünün nurunu əridib, insanlıq üçün böyük işlər görən, əsərlər yazan, ixtiralar, kəşflər edənlər təkcə özləri üçün yox, bəşəriyyət üçün yaşayırlar. İnsan-insanı sevməlidir. Bizi yaşadan həm də ətrafımızın bizə olan xoş münasibətidir. Bu yaxınlarda gözəl sənətkarımız, xalq artisti Tükəzban İsmayılova ilə bağlı bir verilişə baxırdım. Tükəzban xanım dedi ki, ağır xəstə yatırdım. Zəng edib bildirdilər ki, Prezident Heydər Əliyev mənimlə telefonla danışacaq. Prezident mənimlə danışdı. Ağrı-acılarım sovuşub getdi. Ulularımız: «öldürməzdi məni güllə yarası, öldürdü söz yarası», deyiblər.



**Malik Abbas oğlu Məmmədov (1903)**
*Qaramurad kəndində anadan olmuşdur. 5 övladı, 9 nəvəsi, 3 nəticəsi var.*

İnsan ürəyi xoş gündən, xoş həyatdan su içir. Bir də insanı yaxşılıq və yaxşı ad yaşadır. Zaman-zaman törədilən müharibələr, qanlar-qadalar insan ömründən izsiz-tozsuz ötüşməmişdir. Hələ uşaqlıqda qulağıma hopmuş sözlər var. Filan dərd filankəsin ömrünə xal saldı deyərdi el-obamızın adamları. Onu da deyərdilər ki, mən əyilməzdim, məni dərd əydi. Dərdsiz-qəmsiz yaşamaq uzunömürlülüyün rəhni, mayasıdır. Uzağa getməyək, 1941-45-ci illər müharibəsini xatırlayaq. O amansız illərin yaraları hələ də ürəklərdə qövr edir, sağalmaq bilmir. Bu müharibədə minlərlə insan kirpiyi ilə od götürdü. Körpələr atasız qaldılar, gəlinlər vaxtsız qocaldılar. Ər əvəzinə, ata yerinə övlad böyütdülər. Gədəbəyin nə qədər ər oğulları geri dönmədilər. Dönənlər isə çoxusu ya yaralı, ya xəstə qayıtdılar. Bəlkə o insanların arasında Gədəbəy neçə-neçə uzunömürlülərini itirdi. Bu qəlbi dağların ilahi cənnəti Gədəbəyin qızları, gəlinləri də az dərd-qəm çəkmədilər. 1990-cı illərdə torpağımıza soxulan erməni faşistlərinə qarşı döyüşlərdə Gədəbəy müstəqil Azərbaycanımız üçün 186 şəhid vermişdir. İnsan üçün bundan böyük dərd ola bilərmi?! Zaman keçəcək, nəsillər dəyişəcək, amma bu yaralar ürəklərdə uzun müddət qövr edəcəkdir. Gözümü açıb doğulduğum Alnavat kəndində çoxlu uzunömürlü insanların yaşadığını görmüşəm. 1950-ci illərdə 120 yaşı geridə buraxmış Çeşmi qarı ən kiçik nəvəsi Rəsulun əsgəri xidmətə getdiyini eşidəndə, kövrəlib demişdi: «Ay Allah, mənə üç il də ömür ver, nəvəm əsgərlikdən qayıtsın, onu görüm, sonra ölüm». Allah-Taala Çeşmi qarını bu arzusuna da çatdırdı. Kəndimizdəki uzunömürlülər sırasında Alpənahlı Məhəmməd kişi, qarısı Səkinə nənə və onların övladı müharibə iştirakçısı İsmayıl, qızları Tellər və Patan xala 100 yaşı haqlayıb rəhmətə getdilər. Qonşumuz Səməndər İsmayıloğlu 110 yaşında ot biçirdi, həyət-bacanın xırda daşlarını yığırdı. Anam Muncuq, onun tay-tuşları Nigar, Pürzə, Sünbül, Dursun, Fatma, Kübra xalalar da 100 yaşın astanasında dünyalarını dəyişdilər. Dəyirmançı Hasanın gəlini Zülfü xala, Rəsulluların gəlini Gülü xala da, onlarla adam 100 yaşı keçəndən sonra rəhmətə getdilər. Adları çəkilən bu insanları mən həmişə sənəklə bulaqdan su gətirən, biçilmiş otu yığan, tarlada çalışan görmüşəm. Onlar kənddə gündüzlər işləyib, axşamlar meşəylə, dağla yaylağa gedərdilər. Gündəlik həyat və qayğılar orda da davam edərdi, inək sağmaq, nehrə çalxalamaq, yağ, pendir tutmaq... qış aylarında ən çox yedikləri əriştə istisi, qaşıq xəngəli, qurutlu xəngəl, xaşıl, yay aylarında dovğa, dolma olardı. Təzə şor, təzə yağ, kəsmik, körəməz gündəlik süfrələrinin bəzəyi olardı.







Kartof da bütün yeməklərin yanında. Gədəbəydə pencərdən hazırlanan yeməklər hər ailənin ən sevimli xörəyiydi. Yolotu, əməköməci, unnuca, cincilim, boz pencər və daha bir çox yeməklər sarımsaqlı qatıqla hər gün süfrədə görünərdi. İçdikləri yemişan, quşburnu, kol armudu, kəklikotu, yarpız çay dəmləmələri olardı. Nənəm Mədinə qarı kəndimizin türkəçarə həkimi kimi ad çıxarmışdı. Eləcə də nənəmin bacılığı Tamam qarı. Onlar yazın burnu deşiləndən payızın qırovu düşənədək çöl-çəmənlərdən, çiçəkli talalardan yığışmırdılar. Gül-çiçəyi dəstə-dəstə bağlayıb, kətan torbalara qoyar, onları nəm tutmayan divardan asardılar. Uzunlu qışı yaza qədər, yayda, payızda belə qapımıza «dərmana» gələrdilər. Mədinə nənəmin dərdi böyük idi. Onun iki övladı müharibədən qayıtmamışdı. Həmişə onların adını tutub ağlayırdı. Dərman paylayıb xeyirxahlıq edərdi ki, bəlkə yaxşılığı ovsanata keçə, oğulları Əsgər və Oruc müharibədən qayıdalar. Gədəbəyin kəndlərində heç kəs başıaçıq gəzməzdi. Yayda ot biçini zamanı kişilər başına ağ dəsmal bağlayardılar ki, gün vurmasın. Mən qadınlarımızı və qızlarımızı həmişə yaylıqda görmüşəm. Bu fikirləri yaza-yaza, həm də öz-özümə sual verirəm, bəs görəsən həqiqətən də uzunömürlülüyün sirri nədədir? Bu təkcə fizioloji bir haldırmı, yoxsa irsidir, yaxud elə mən yazdıqlarım və düşündüklərim insanın çox yaşamasının başlıca amilləridir. Alimlər, mütəxəssislər, etnoqraflar bu sirri çox yerdə arayıb-axtarırlar. Bəziləri bunu təbiətlə, bəziləri irsiyyətlə, bəziləri isə insanın keçdiyi həyat tərzi ilə əlaqələndirirlər. Bəlkə də hamı haqlıdır. Amma mən deyirəm ki, uzun ömür sürməyin sirrini bizim dağlardan, onun şır-şır axan çaylarından, ayna bulaqlarından, təmiz havasından, gülündən-çiçəyindən soruşmaq lazımdır. Hərdən mənə elə gəlir ki, bu insanların uzunömürlülüyünün başlıca səbəblərindən biri də onların müntəzəm olaraq işləmələri ilə bağlıdır. Məhəmməd kişi deyirdi: «Mən işləməsəm, ayaqlarım tutular. Hər gün işləyirəm ki, ayaqlarım məndən küsməsin». İndi Gədəbəyin hər kəndində yüz yaşa çatmış insanlar var. Arayıb-axtaranda görürsən ki, yüz yaşını geridə qoymuş gədəbəylilər həm Şınıxda, həm Miskinlidə, həm də Xınna dərəsində onlarladır. Şübhəsiz ki, dövlət qayğısı, ölkə rəhbərliyinin göstərdiyi diqqət, yaşlılara bəslədiyi hörmət insanların uzun ömür sürməsinə böyük rəvac verən amillərdən biridir. Ümummilli liderimiz Heydər Əliyev daima insanlara böyük hörmət və məhəbbətlə yanaşırdı. Xüsusilə onun yaşlı nəslə olan münasibəti həmişə diqqəti özünə çəkərdi. Mən dəfələrlə şahidi olmuşam ki, Ulu öndərimiz ağbirçək analarımızla, ağsaqqal, müdrik babalarımızla elə şirin-şirin söhbətlər edərdi ki, adam bu söhbətlərdən doymazdı. Onun hakimiyyəti illərində Azərbaycanın bütün yaşlı insanları dövlətimizin həm maddi, həm mənəvi dəstəyindən heç zaman kənarda qalmadılar.



**Nərgiz Cavad qızı Əsgərova (1894)**
*Dəyirmandağ kəndində anadan olmuşdur. 8 övladı, 39 nəvəsi, 91 nəticəsi, 6 kötükcəsi var.*

Əmək və müharibə veteranlarına, ədəbiyyatımızın və incəsənətimizin görkəmli, yaşlı nəsillərinə göstərilən qayğı və diqqət yaddan çıxarmı?! Bu gözəl ənənələr indi də davam etməkdədir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yaşlı nəslə təkcə bir dövlət rəhbəri kimi yox, həm də bir övlad, bir oğul kimi diqqətlə yanaşır. Minnətdarlıq hissi ilə bildirirəm ki, belə qayğının istisinə isinənlərdən biri də mənəm, prezident təqaüdü alıram. Bir sözlə, insanın yaşaması, uzun ömür sürməsi hamıdan və hər kəsdən, ulu təbiətdən, yaşadığımız cəmiyyətdən, ən başlıcası vətəndaşı olduğu ölkədən, onun dövlətindən və rəhbərindən asılıdır. Bu gün Gədəbəydə Xəlilova Bəyaz Həsən qızı (1880), Mirzəyeva Lala Hümbət qızı (1885), İbrahimova Məryəm Musa qızı (1886), Əsgərova Qaratel Kazım qızı (1889), Mustafayeva Eşqabad Cəfər qızı (1889), Həsənova Atlas Əsəd qızı (1896) kimi uzunömürlüləri hamı tanıyır. Bu o insanlardır ki, ata-anaları, qohum-əqrabaları həmişə onlara alqış edəyib deyiblər: «Ömrün uzun olsun!», «Günün ağ olsun!». Mən də deyirəm: - Ay 100 ili arxada qoyan imanı kamil nənələr, ağsaqqal-ağbirçəklərimiz «Ömrünüz daha da uzun olsun», «Gününüz daha da ağ olsun».

